**"AZƏRBAYCAN HAVA YOLLARI"**
**QAPALI SƏHMDAR CƏMİYYƏTİ**
**MİLLİ AVİASİYA AKADEMİYASI**

*Əlyazması hüququnda*

**LEYLA RAUF QIZI ƏLİYEVA**

# MÜLKİ HÜQUQLAR: BEYNƏLXALQ STANDARTLAR VƏ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİ

5603.01 - Beynəlxalq hüquq; insan hüquqları
5607.01- Konstitusiya hüququ; bələdiyyə hüququ

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI - 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əliyev Əmir İbrahim oğlu**
hüquq elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Əfəndiyev Oqtay Firudin oğlu**,
hüquq elmləri doktoru

**Mürşüdova Samirə Xoşbəxt qızı**,
hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi " 28" iyun 2014-cü il tarixdə saat - da "Azərbaycan Hava Yolları" QSC Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən FD.06.011 ixtisaslaşdırılmış dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, Binə qəsəbəsi, 25-ci km., Aviaşəhərcik, 3-cü tədris korpusu, akt zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Aviasiya Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "    " may 2014-cü il tarixdə göndərilmişdir.

**FD.06.011 dissertasiya şurasının**
**elmi katibi, hüquq elmləri namizədi,**
**dosent** **F.T.Nağıyev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** İnsan hüquqları insanlara anadangəlmə məxsus olmaqla, şəxsiyyətin hüquqi statusunun əsasını təşkil edir. Buna görə də, insan hüquqlarının, o cümlədən, insanın şəxsi sferasını əhatə edən və tədqiqat işimizin obyekti olan mülki hüquq və azadlıqların təmin edilməsinin hər fərd üçün, insanın müdafiəsi üçün əhəmiyyətini dəyərləndirməmək qeyri-mümkündür. Bununla yanaşı, insan hüquqları demokratik cəmiyyətin əsasını təşkil edir[1]. Dövlətdə demokratiyanın qurulması insan hüquqlarının tanınması, tətbiqi və onlara hörmət edilməsindən birbaşa asılıdır.

İnsan hüquqlarının təmin edilməsinin bütövlükdə cəmiyyətin, dünyanın maraqları baxımından da əhəmiyyəti danılmazdır. Belə ki, qlobal təhlükəsizliyə meylin əsasında da şəxsiyyətin müdafiəsi istəyi durur [2]. Məhz bu səbəblərdən insan hüquqlarının müdafiəsi ilə bağlı məsələlər öz aktuallığını itirmir, əksinə, illər keçdikcə, bu məsələlər daha da əhəmiyyət kəsb etməkdədir.

Digər tərəfdən, inkar etmək olmaz ki, təbii xarakter daşımasına baxmayaraq, insan hüquqları yalnız beynəlxalq və milli hüquqi tənzimetmə yolu ilə təmin edilə bilər. Hazırda mülki hüquqlar sahəsində əsas standartlar beynəlxalq hüquq vasitəsilə yaradılır, insan hüquqlarının müdafiəsi, onların qanunsuz qəsdlərdən qorunması sahəsində əsas öhdəliklərin yerinə yetirilməsi vəzifəsi isə məhz dövlətlərin üzərinə düşür. Belə ki, beynəlxalq müqavilələrə əsasən üzərinə müəyyən öhdəliklər götürən dövlətlər həmin müqavilələrdə təsbit edilmiş müddəaların həyata keçirilməsi üçün müvafiq tədbirlər görməli[3], o cümlədən, insan hüquqları sahəsində beynəlxalq standartları milli qanunvericiliyə daxil etməli, mövcud qanunvericiliyi bu standartlara uyğunlaşdırmalı, bu standartların reallaşmasına xidmət edən kompleks normalar sistemi yaratmalıdır.

Beynəlxalq münasibətlərin iştirakçısı olan hər bir normal, sivil dövlət göstərilən öhdəliklərin icrasına çalışsa da, bu, cəmi 23 illik müs-

[1] Oberdorff H. Droits de l'homme et Libertes fondamentales. Paris : L.G.D.J, 2008, p. 1

[2] Черниченко С.В. Теория международного права. Том 2. Москва: Нимп, 1999, с.360

[3] Международное право/ под.ред. Микульшина А.И. Москва: Международные отношения, 2005, с.154



təqillik tarixi olan, uzun illər SSRİ-nin tərkibində olmuş, mülki hüquqların müdafiəsi sahəsində ənənələrə malik olmayan Azərbaycan Respublikası kimi dövlətlər üçün ilk baxışdan göründüyü kimi də asan məsələ deyil.

İnsan hüquqlarının təmini və müdafiəsi məsələləri daim Ümumilli Liderimiz Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Ulu Öndər insan hüquqlarının müdafiəsinin dövlətimiz və eyni zamanda, vətəndaşlarımız üçün xüsusi əhəmiyyətini belə ifadə etmişdir: "İnsan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir" [4]. İnsan hüquqlarının qorunması sahəsində Ulu Öndərin siyasəti Prezident İlham Əliyev tərəfindən davam etdirilməkdədir. Prezidentimizin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında 28 dekabr 2006-cı il tarixli sərəncamında göstərilmişdir: "Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir" [5].

Müstəqillik əldə etdikdən sonra, Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən əsas beynəlxalq təşkilatlar olan BMT-yə, AŞ-a üzv qəbul edilmiş, mülki hüquqlar sahəsində mövcud əsas universal və regional beynəlxalq müqavilələrə qoşulmuşdur. Eyni zamanda, 1995-ci ilin 12 noyabrında müstəqil respublikamızın ilk Konstitusiyası qəbul edilmiş, həmin Konstitusiyanın III fəsli "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanmaqla fundamental insan hüquqlarının, o cümlədən, mülki hüquq və azadlıqların siyahısını əks etdirmişdir. Bununla yanaşı, Azərbaycan Respublikasında mülki hüquqların təmin edilməsinə xidmət edən qanunlar (məs: "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 24 dekabr 2002-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya qanunu, "Dini etiqad azadlığı haqqında" 20 avqust 1992-ci il tarixli Azərbaycan Respublikasının Qanunu və s.) qəbul olunmuş, mövcud qanunvericilik aktlarına mütərəqqi dəyişikliklər edilmişdir.

Lakin bütün səylərə və mütərəqqi addımlara baxmayaraq, hazırda

[4] Heydər Əliyev dövlətçilik haqqında (kəlamlar, sitatlar, aforizmlər). / Redaktor X.Vəliyev. Bakı: Adiloğlu, 2008, s 45

[5] Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi barədə AR Prezidentinin 28 dekabr 2006-cı il tarixli sərəncamı / http://www.msk.gov.az/az/serencamlar/430/

da Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən olunan mülki hüquqlar sahəsində standartlarla milli qanunvericiliyimiz arasında uyğunsuzluqlar, Azərbaycan Respublikasının qanunvericiliyində boşluqlar, çatışmazlıqlar, eyni zamanda, mövcud qanunvericilik normalarının həyata keçirilməsi ilə bağlı problemlər reallıq olaraq qalır. Belə ki, Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən keçən qısa müddət ərzində insan hüquqlarının müdafiəsinin səmərəli milli sisteminin yaradılması mümkün də deyildi.

Bütün göstərilən məsələlər tədqiqat işimizdə mülki hüquqlar sahəsində beynəlxalq standartlarla bu sahədə Azərbaycan Respublikası qanunvericilik normalarının müqayisəli təhlilinin aparılmasını, Azərbaycan Respublikası qanunvericiliyində mövcud olan beynəlxalq standartlarla uyğunsuzluqların, boşluqların aşkara çıxarılmasını, bu halların aradan qaldırılması məqsədilə qanunvericiliyə əlavə və dəyişikliklər edilməsi üzrə konkret təkliflər verilməsini, eyni zamanda, Azərbaycan Respublikasında mülki hüquqların pozulması hallarının qarşısının alınmasına və mülki hüquqlara əməl edilməsinə xidmət edə biləcək tədbirlərin görülməsi ilə bağlı tövsiyələr verilməsini müasir Azərbaycan reallığı üçün aktual edir.

**Tədqiqat işinin obyekti**ni mülki hüquqların müdafiəsi sahəsində beynəlxalq hüquqi standartlar və Azərbaycan Respublikasının qanunvericilik normaları təşkil edir.

**Tədqiqat işinin predmeti** mülki hüquqların müdafiəsi sahəsində beynəlxalq standartların milli qanunvericiliyə daxil edilməsi, milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması və beynəlxalq hüquqi standartların əsasında mülki hüquqların müdafiəsi sahəsində milli qanunvericilik sisteminin formalaşdırılması məsələlərindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi mülki hüquqlar sahəsində beynəlxalq standartlara uyğunluğu baxımından Azərbaycan Respublikası qanunvericiliyinin kompleks şəkildə tədqiq edilməsi və nəticə olaraq, mülki hüquqlar sahəsində beynəlxalq standartların Azərbaycan Respublikası qanunvericiliyinə implementasiyasına və onların Azərbaycan Respublikasında həyata keçirilməsinin təmin edilməsinə xidmət edəcək tövsiyə və təkliflərin verilməsidir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

- mülki hüquqların hazırkı inkişaf tendensiyaları barədə aydın təsəvvürün yaranması üçün mülki hüquqların inkişaf tarixinin, bu sahədə beynəlxalq hüquqla milli hüququn qarşılıqlı əlaqələrinin öyrənilməsi;
- mülki hüquq və azadlıqlar sahəsində mövcud beynəlxalq universal və regional standartların araşdırılması və sistemləşdirilməsi;
- mülki hüquq və azadlıqlar sahəsində beynəlxalq standartlarla Azərbaycan Respublikası qanunvericiliyinin müqayisəli təhlilinin aparılması;
- müqayisəli təhlilin nəticəsi olaraq Azərbaycan Respublikası qanunvericiliyində mövcud boşluqların, çatışmazlıqların, uyğunsuzluqların aşkara çıxarılması, onların mövcud olması səbəblərinin araşdırılması;
- qanunvericilikdə mövcud boşluqların, çatışmazlıqların, uyğunsuzluqların aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də Azərbaycan Respublikasında mülki hüquqların səmərəli şəkildə reallaşmasının təmin edilməsi məqsədilə milli qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsinə dair konkret təkliflərin hazırlanması və tövsiyələrin verilməsi.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq beynəlxalq universal və regional standartlar kontekstində Azərbaycan Respublikasının mülki hüquq və azadlıqların təmin edilməsinə yönələn qanunvericiliyinin kompleks şəkildə tədqiqi aparılmışdır. Eyni zamanda, aparılmış tədqiqatın əsasında mülki hüquqlara dair beynəlxalq standartların Azərbaycan Respublikası qanunvericiliyinə daxil edilməsi və həmin standartların dövlətimizdə həyata keçirilməsini təmin edən milli qanunvericilik sisteminin yaradılması problemləri hərtərəfli araşdırılaraq bu problemlərin həll edilməsi yollarının tapılmasına cəhd edilmiş, bu istiqamətdə konkret təkliflər verilmişdir.

Müdafiəyə təqdim edilmiş əsas elmi müddəalar:

1. Tədqiqatın nəticəsi olaraq mülki hüquq və azadlıqlara aşağıdakı anlayış verilmişdir: mülki hüquq və azadlıqlar (onlara, həmçinin, şəxsi hüquq və azadlıqlar da deyirlər) insanın şəxsi sferada azadlığını təmin edən və həmin azadlığı dövlət və digər şəxslər tərəfindən qanunsuz müdaxilələrdən müdafiə edən insana doğulduğu andan məxsus təbii və ayrılmaz hüquq və azadlıqlardır.
2. Hər bir dövlətdə mülki hüquqlar sahəsində beynəlxalq standartların həyata keçirilməsinə nail olmaq üçün beynəlxalq standartların milli qanunvericiliyə implementasiyası kifayət etmir, həmin standartların bazasında mülki hüquqların müdafiəsinə xidmət edən qanunvericilik normaları kompleksinin yaradılması və milli qanunvericilik aktlarının beynəlxalq standartlara uyğunlaşdırılması da həyata keçirilməlidir.
3. Müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilən mülki hüquqlar sahəsində əksər beynəlxalq standartlar Azərbaycan Respublikası Konstitusiyası, eləcə də, digər qanunvericilik aktlarında yer alsa da, beynəlxalq standartlarla

Azərbaycan Respublikası qanunvericiliyi arasında müəyyən uyğunsuzluqlar, qanunvericilikdə boşluqlar, çatışmazlıqlar da mövcuddur. Göstərilən neqativ halların aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası qanunvericiliyinə aşağıdakı əlavə və dəyişikliklərin edilməsi məqsədəuyğundur:

- beynəlxalq standartlara əsasən (məs., İHAK-nın 5-ci maddənin 4-cü bəndi) hər hansı əsasla azadlığı məhdudlaşdırılmış şəxsin bu məhdudlaşdırmanın qanunsuz və əsassızlığından, eləcə də, məhdudlaşdırmanın davam etməməsinin qanunsuz və əsassızlığından məhkəməyə şikayət etmək hüququna malik olması azadlıq və şəxsi toxunulmazlıq hüququnun vacib təminatlarından birini təşkil edir. Buna baxmayaraq, qanunvericiliyimizdə psixiatriya stasionarına qeyri-könüllü yerləşdirilmiş şəxsin yerləşdirilmənin qanuniliyinə baxılması barədə, eləcə də, psixiatriya stasionarından vaxtından əvvəl çıxarılması və ya hospitallaşma müddətinin uzadılmaması barədə məhkəməyə müraciət etmək hüququ yer almamışdır. Hesab edirik ki, həmin hüququ nəzərdə tutan maddənin MPM-ə və "Psixiatriya Yardımı haqqında" 12 iyun 2001-ci il tarixli qanuna əlavə edilməsi zəruridir.
- işə mahiyyəti üzrə baxan hakimin əvvəllər həmin iş üzrə təqsirləndirilən şəxsə həbs qətimkan tədbirinin tətbiq edilməsinə dair qərar və ya həbs müddətinin uzadılması barədə qərar qəbul edilməsində iştirakının hakimə etiraz üçün əsas kimi CPM-də qəbul edilməsi məqsədəuyğundur.
- qanunvericilikdə şəxsin təqsirliliyi qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyən edilməyənədək KİV tərəfindən həmin şəxsi cinayətkar kimi göstərən məlumatların yayılması "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası qanununda kütləvi informasiya azadlığından sui-istifadə halları arasında yer almalıdır. Bununla yanaşı, dövlət orqanları, dövlətin vəzifəli şəxsləri, eləcə də, KİV tərəfindən şəxsin təqsirsizlik prezumpsiyasını pozan belə məlumatların yayılmasına görə məsuliyyət müəyyən edilməlidir.
- prosessual məcəllələrdə şəxsin ona dövlət hesabına hüquqi yardım göstərən vəkilin fəaliyyətinin səmərəsizliyindən şikayət etmək hüququna malik olması və şikayət əsaslı olduğu halda, məhkəmə tərəfindən ona başqa vəkilin təyin olunması barədə müddəaların nəzərdə tutulması məqsədəmüvafiqdir.
- Azərbaycan Respublikası qanunvericiliyində milli mənsubiyyətin müəyyən edilməsi hüququ beynəlxalq standartlarda nəzərdə tutulduğu kimi, yəni şəxsin ona hər hansı milliyyətin nümayəndəsi kimi baxılmasını seçmək azadlığı kimi təsbit edilməlidir.



- Azərbaycan Respublikası qanunvericiliyinin dini etiqad azadlığına dair beynəlxalq standartlara uyğunlaşdırılması, eləcə də dövlətimizin həmin hüququn təmin edilməsinə dair beynəlxalq cəmiyyət qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi baxımından Azərbaycanda alternativ xidmətin tətbiqi haqqında qanunun qəbulu olduqca vacibdir. Bu addımların atılması üçün müvafiq iqtisadi və siyasi şəraitlər yaradılmalıdır.

4. Bundan əlavə, göstərilir ki, Azərbaycan Respublikasında hüquq mühafizə orqanları tərəfindən mülki hüquqların pozulması hallarının azaldılmasına nail olmaq üçün cinayət prosesi gedişində həmin hüquqları məhdudlaşdıran prosessual hərəkətlərin və prosessual qərarların qanuniliyinə səmərəli nəzarət mexanizmi formalaşdırılmalıdır. Prokuror nəzarətinin səmərəliliyini yüksəltmək üçün prokurorluq orqanlarının funksiyaları ilə bağlı islahatların aparılması, o cümlədən, istintaqın prokurorluqdan ayrılması, eyni zamanda məhkəmə prosesi gedişində prokurorluğun ittiham tərəfi qismində iştirakının dövlət nümayəndəsi qismində iştirakı ilə əvəz edilməsinə ehtiyac duyulur. Digər tərəfdən məhkəmə nəzarətini həyata keçirən məhkəmənin (hakimin) funksiyalarının genişləndirilməsi, eləcə də, yalnız məhkəmə nəzarəti funksiyasını həyata keçirən xüsusi kateqoriya hakimlərin yaradılması məhkəmə nəzarəti mexanizminin səmərəliliyini artıra bilər.
5. Məhkəmə qərarlarını qəbul etmiş hakimlərin həmin qərarların icrasına nəzarət üzrə vəzifələrinin konkretləşdirilməsi, eləcə də, icra məmurlarının "motivasiyası"nın artmasına şərait yaradan icra sisteminin təşkili (məs., mərhələli olaraq məhkəmə qərarlarının icrasının "fransız modelinə" keçidin həyata keçirilməsi yolu ilə) məhkəmə qərarlarının icra edilməməsi hallarının azaldılmasına nail olmaq istiqamətində əhəmiyyətli addım ola bilər.

**Tədqiqatın nəzəri əsasları**. Dissertasiya işinin elmi-nəzəri əsaslarını insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi sahəsini araşdırmış müəlliflərin (R.M.Valeyev, V.A.Kartaşkin, E.A.Lukaşeva, S.V.Çerniçenko, İ.İ.Lukaşuk, V.A.Tumanov, E.T.Usenko, A.N.Qolovistikova, L.Y.Qrudsina, R.A.Müllerson, K.Vasak, M.Makkovey, M.Novak, Y.Braunli, D.Gomin, H.Oberdorf və d.), konstitusiya hüququ istiqamətində tədqiqat aparmış alimlərin (B.A.Straşun, V.Y.Çirkin, L.M.Entin, Q.D.Sadovnikova, M.V.Baqlay və d.) elmi əsərləri təşkil edir. Göstərilənlərlə yanaşı, dissertasiya işinin nəzəri əsaslarının müəyyən edilməsində M.N.Ələsgərov, F.Y.Səməndərov, Z.A.Əsgərov, L.H.Hüseynov, Ə.İ.Əliyev, N.H.Əliyev, R.F.Məmmədov, V.Ə.İbayev, İ.O.Quliyev, M.Ə.Cəfərquliyev, M.D.Dəmirçiyeva, A.İ.Mustafayeva, K.N.Makili-

Əliyev kimi azərbaycanlı hüquqşünas alimlərin əsərlərindən də istifadə olunmuşdur.

Bundan əlavə, dissertasiya işinin yazılmasında çoxsaylı beynəlxalq müqavilə və beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş tövsiyə xarakterli beynəlxalq sənədlərdən, Azərbaycan Respublikasının qanunvericilik aktlarından istifadə edilmişdir.

**Tədqiqatın metodologiyası**. Tədqiqatın aparılması zamanı tarixi, müqayisəli və sistemli analiz, dialektik-məntiqi metodlardan istifadə edilmişdir.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işinin elmi müddəaları və tədqiqat işinin nəticəsi kimi işlənmiş təklif və tövsiyələr mülki hüquqların təmin edilməsinə yönəldilmiş Azərbaycan Respublikası qanunvericilik aktlarının qəbulu və mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsində, məhkəmə praktikasında istifadə oluna bilər.

Bununla yanaşı, tədqiqatın nəticələrindən insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsinin tədrisində, gələcək elmi tədqiqatlarda, həmin fənlər üzrə dərs vəsaitlərin hazırlanmasında istifadə olunması mümkündür.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunda yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri xaricdə və ölkədə nəşr olunmuş elmi jurnallarda, habelə, elmi praktik konfrans materiallarında məqalə və tezislər formasında dərc olunmuşdur. Dissertasiya işi AMEA-nın İnsan Hüquqları İnstitutunun genişləndirilmiş Elmi Şurasının iclasında ilkin müzakirədən keçərək müdafiəyə tövsiyə olunmuşdur.

Tədqiqatın əsas müddəa və nəticələri elmi nəşrlərdə çap olunan məqalələrdə, elmi konfranslarda təqdim olunmuşdur.

**Dissertasiyanın strukturu:** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri qeyd olunur, onun nəzəri və metodoloji əsasları, tədqiqat işinin elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, o cümlədən, müdafiəyə çıxarılan elmi müddəalar müəyyən edilir.

**Dissertasiya işinin birinci fəsli** "Mülki hüquq və azadlıqlar milli və beynəlxalq hüquq sistemində" adlanır və 3 yarımfəsildən ibarətdir. **Birinci fəslin birinci yarımfəsli** mülki hüquq və azadlıqların müdafiəsinin milli və beynəlxalq hüquq institutu kimi yaradılması və inkişaf



tarixinə həsr edilmişdir. Burada qeyd olunur ki, insan hüquqları, onların müdafiəsi nə qədər müasir, sonuncu yüzillikdə aktual olmuş bir anlayış kimi görünsə də, ilk növbədə, tarixi kateqoriyadır, əvvəl "insan hüquqları ideya"sının, sonradan isə, insan hüquqlarının şəxsiyyətin statusunun ayrılmaz tərkib hissəsi kimi qəbul edilməsində mühüm rola malik olmuş təbii hüquq nəzəriyyəsinin və nəhayət insan hüquqlarının müdafiəsi konsepsiyasının yaranması məhz cəmiyyətin tarixi inkişafının məhsuludur. İnsanın anadan olan vaxtdan ayrılmaz, təbii hüquqlara malik olması ideyası öz tarixini insan cəmiyyətinin yarandığı dövrdən götürmüş və sonradan Qədim Yunanıstanın, Romanın və digər antik sivilizasiyaların siyasi-hüquqi təlimlərində inkişaf etmişdir. İnsan hüquqlarının təbii xarakterini tanıyan ilk vacib hüquqi akt isə 1215-ci il İngiltərə Böyük Azadlıqlar Xartiyası olmuşdur. Dissertasiyanın bu hissəsində əvvəlcə mülki hüquqların milli hüquqi sənədlərdə möhkəmləndirilməsinin inkişaf tarixi (1215-ci il tarixli Böyük Azadlıqlar Xartiyasından 1791-ci il tarixli amerikan Hüquqlar haqqında Billə qədər) təhlil edilir, sonradan XIX əsrdən başlayaraq mülki hüquqların və bütövlükdə insan hüquqlarının hüquqi müdafiəsinin beynəlxalq hüquq institutuna çevrilməsi prosesi nəzərdən keçirilir, mülki hüquqların universal və regional səviyyəli beynəlxalq hüquqi sənədlərdə inkişafı və təkamülü prosesi təsvir olunur.

**Birinci fəslin ikinci yarımfəslində** mülki hüquq və azadlıqların anlayışı və səciyyəvi xüsusiyyətləri tədqiq edilir, mülki hüquq və azadlıqların digər qrup insan hüquqlarına nisbətən üstün mövqeyə malik olmaları əsaslandırılır, eyni zamanda, mülki hüquqlar kateqoriyasına daxil olan insan hüquq və azadlıqlarının siyahısı müəyyən edilir. Göstərilir ki, insan hüquq və azadlıqlarının məzmunu və ya həyata keçirilmə sferası baxımından qruplarından biri olan mülki hüquq və azadlıqlar yaranma tarixinə görə birinci nəsil hüquqlara aiddir. İnsan hüquqları üzrə beynəlxalq müqavilələrdə əks olunan müddəalar mülki və siyasi hüquqları bir-birindən tamamilə ayırmağa imkan verməsə və "mülki hüquqlar" anlayışını müəyyən etməsə də, yalnız onlara xas olan səciyyəvi xüsusiyyətlərinə görə, mülki hüquqları digər hüquq qruplarından fərqləndirməyə imkan verir.

Əvvəla, digər qrup hüquq və azadlıqlardan fərqli olaraq mülki hüquqlar insan həyatının şəxsi sferasını - onun həyatını, sağlamlığını, daxili aləmini, azadlığını, şəxsi və ailə həyatını əhatə edir. İkincisi, həmin hüquqların subyekti olan insana siyasi xadim, işçi, sahibkar, mədəni və sosial həyatın nümayəndəsi kimi deyil, bir şəxsiyyət kimi baxılır və bu hüquqlar insanın şəxsi azadlıq və toxunulmazlığını müdafiə edir.

Bu yarımfəsildə, həmçinin, mülki hüquq və azadlıqların insan hüquqları sistemində yeri və insan hüquqları arasında iyerarxiyanın mövcud olub-olmaması barədə məsələyə toxunulur. Müəllif bütün insan hüquqlarının bərabərstatuslu sayılması və onların hamısının birlikdə insan həyatının bütün sferalarını əhatə edən və azad fəaliyyət göstərməsinə şərait yaradan bütöv əmələ gətirməsi fikri ilə razılaşır. Lakin, eyni zamanda bu üstünlük heç bir hüquqi nəticələr yaratmasa da, mülki hüquqların insan hüquqları arasında mərkəzi yerdə dayandığını və müəyyən dərəcədə üstünlüyünün mövcudluğunu da qeyd edir və mülki hüquqların digər qrup hüquqlara nisbətən üstünlüyü fikrini aşağıdakı amillərlə bağlayır:

1. Mülki hüquqlar insana doğulduğu andan məxsus olmaqla, ayrılmaz və təbiidir. Hər bir insan - dövlətin vətəndaşı, vətəndaşlığı olmayan şəxs və ya əcnəbi olmasından asılı olmayaraq, bu hüquqlara eyni dərəcədə malikdir.
2. Həmin hüquqlar insan üçün ən vacib sferanı – həyatının şəxsi sferasını, o cümlədən, insanın ən vacib neməti olan həyatını qanunsuz müdaxilələrdən qoruyur. Bütün digər mülki hüquqlar və eləcə də, digər qrup hüquqlar məhz yaşamaq hüququ ətrafında birləşir və bu hüquq həyata keçmədiyi halda mənasını itirir.
3. Mülki hüquqların bir çoxu mütləq xarakter daşıyır, yəni ayrılmaz olmaqdan başqa, həmçinin, məhdudiyyətə məruz qalmayan hüquqdur.

**Birinci fəslin üçüncü yarımfəslində** mülki hüquq və azadlıqların hüquqi tənzimlənməsində beynəlxalq və milli hüququn yeri, nisbəti, qarşılıqlı təsiri məsələləri təhlil edilir.

Mülki hüquqlar sahəsində beynəlxalq və milli hüquqi tənzimetmənin nisbəti və qarşılıqlı təsiri ilə bağlı müəllif qeyd edir ki, mülki hüquqlar sahəsində milli hüququn (əsasən konstitusiya hüququnun) həmin sahədə beynəlxalq standartların formalaşmasına təsiri tarixi əhəmiyyətə malik olsa da, hazırda insan hüquqlarının hüquqi tənzimlənməsində məhz beynəlxalq standartlar üstün mövqeyə malikdir və onların dövlətdaxili hüququn, xüsusilə də, konstitusiya hüququnun təkamülündə, demokratikləşməsində əvəzolunmaz rol oynaması danılmazdır. Belə ki, mülki hüquq və azadlıqlar sahəsində mövcud beynəlxalq müqavilələrlə dövlətlərin üzərinə qoyulan öhdəliklər həmin standartların milli qanunvericiliyə daxil edilməsini (implementasiyası), həmin standartlara əməl edilməsinə yönəldilmiş mütərrəqi hüquq normaları kompleksinin yaradılmasını, eləcə də qanunverici xarakter daşımayan digər tədbirlər kompleksinin görülməsini tələb edir.

Müəllif belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Konstitusiyasının 148.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər avtomatik olaraq Azərbaycan Respublikası qanunvericilik sisteminə inkorporasiya olunsa da, bu hal beynəlxalq standartların milli qanunvericilikdə təsbitinə dair Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin avtomatik olaraq icra edilməsi demək deyildir.

Çünki, **əvvəla,** beynəlxalq müqavilələr arasında "özü icra olunmayan müqavilələr" mövcuddur ki, bu müqavilələr avtomatik olaraq dövlətin daxili qanunvericiliyinə implementasiya olunduğu halda da, həmin dövlətdə birbaşa tətbiq oluna bilmir. **İkincisi,** beynəlxalq müqavilələr milli qanunvericilikdə konkretləşdirilməli olan insan hüquqları üzrə minimal standartları müəyyən edir. **Üçüncüsü,** dövlətlərin mülki hüquqlarının müdafiəsi sahəsində götürdüyü öhdəliklərin icrası üçün mövcud milli qanunvericilik normaları da beynəlxalq standartlara uyğunlaşdırılmalıdır. Belə ki, insan hüquqları sahəsində beynəlxalq standartların milli hüquq normaları üzərində üstünlüyə malik olması dövlət tərəfindən tanındığı halda da, beynəlxalq standartlarla milli normalar arasında kolliziyaların və ya uyğunsuzluqların mövcudluğu beynəlxalq standartların həyata keçirilməsində çətinliklər yarada bilər.

**Tədqiqatın** "Mülki hüquq və azadlıqlar sahəsində beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyinin ümumi xarakteristikası" adlanan **ikinci fəslində** müəllif tərəfindən mülki hüquq və azadlıqlar sahəsində beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyinin ümumi xarakteristikası verilir.

**İkinci fəslin birinci yarımfəslində** mülki hüquq və azadlıqlar sahəsindəki beynəlxalq standartlar sistemi barədə ümumi görüntü yaradılır, mülki hüquqların beynəlxalq hüquqi müdafiəsi sahəsində ümumi normalar - prinsiplər müəyyən edilir, göstərilən sahədə beynəlxalq standartların təsnifatı aparılır. Göstərilir ki, beynəlxalq hüququn müstəqil prinsipi kimi ilk dəfə ATƏM-in 1975-ci il Helsinki Yekun aktında təsbit edilmiş insan hüquqlarına hörmət edilməsi prinsipi insan hüquqlarının, o cümlədən, mülki hüquqların müdafiəsi sahəsində beynəlxalq standartların bünövrəsini təşkil edir və bu sahədə mövcud bütün beynəlxalq standartlar məhz bu prinsip ətrafında birləşərək sistem əmələ gətirir.

Həmin prinsipin hüquqi bazasında formalaşan və inkişaf edən mülki hüquqlar sahəsində beynəlxalq standartlar müəllif tərəfindən məzmununa və ya yerinə yetirdiyi funksiyalara görə aşağıdakı qruplara təsnifləşdirilir:

Birinci qrupu mülki hüquqlara hörmət edilməsi və onların müdafiəsi sahəsində ümumi normaları - prinsipləri müəyyən edən standartlar təşkil edir. Müəllif tərəfindən bu prinsiplərə mülki hüquq və azad-

lıqlardan istifadə edilməsi zamanı ayrı-seçkiliyə yol verilməməsi prinsipi, mülki hüquq və azadlıqların müdafiəsinin universallığı prinsipi, mülki hüquq və azadlıqların səmərəli hüquqi müdafiə vasitələrinə malik olmaq prinsipləri aid edilir.

Mülki hüquqlardan istifadə edilməsi zamanı ayrı-seçkiliyə məruz qalmamaq prinsipi təhlil edilərkən ayrı-seçkiliyə əsas olan xüsusiyyətlər arasında iyerarxiyanın mövcudluğu barədə hüquq ədəbiyyatında səsləndirilən fikirlərə də münasibət bildirilir. Qeyd edilir ki, müəyyən əlamətlərə görə ayrı-seçkiliklə mübarizəyə beynəlxalq sənəd və mexanizmlərdə daha çox diqqət edilməsi yalnız həmin əlamətlərə görə ayrı-seçkiliyin qadağan edilməsi prinsipinin pozuntularına daha tez-tez rast gəlinməsi, həmin pozuntuların daha ağır formalarının mövcudluğu ilə bağlıdır. Göstərilən hal həmin əsaslarla, məsələn, irq əlamətinə görə ayrı-seçkiliyə yol verilməsinin digər əsaslarla, məsələn, yaşa görə ayrı-seçkiliyə yol verilməsinə nisbətən hüquqi cəhətdən daha ağır pozuntu olduğu anlamına gəlmir.

İkinci qrup beynəlxalq standartlar mülki hüquqlar üzrə beynəlxalq müqavilələrin mərkəzi və əsas hissəsini təşkil edən mülki hüquqları bəyan edən və onların məzmununu müəyyən edən standartlardır.

Üçüncü qrupa beynəlxalq müqavilə və sənədlərdə bəyan edilmiş mülki hüquqların hədlərini və məhdudlaşdırma əsaslarını müəyyən edən standartlar daxil edilmişdir. Bu qrup standartlarla bağlı qeyd edilir ki, beynəlxalq standartlara əsasən mülki hüquqların heç də hamısı qeyri-məhdud deyildir, heç bir halda məhdudlaşdırılmasına yol verilməyən hüquqlar kimi beynəlxalq sənədlərdə yalnız işgəncəyə və digər qəddar, qeyri-insani, insan ləyaqətini alçaldan rəftar və cəzaya məruz qalmamaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququnun tərkib hissəsi olan köləlikdə saxlanılmamaq və asılılıqda olmamaq hüququ, qanuni əsas olmadan cəzalandırılmamaq hüququ qəbul edilir.

Dördüncü qrupa daxil olan beynəlxalq standartlar mülki hüquqların müdafiəsi sahəsində dövlətlərin öhdəliklərini müəyyən edən beynəlxalq standartlardır. Sonuncu qrupu isə mülki hüquqların kobud pozuntularının beynəlxalq səviyyədə cəzalandırılmasına yönəldilmiş standartlar təşkil edir.

1. **İkinci fəslin ikinci yarımfəsli** mülki hüquq və azadlıqlar sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin ümumi xarakteristikasına həsr edilmişdir. Burada Azərbaycan Respublikasının mülki hüquq və azadlıqların müdafiəsinə yönəldilmiş qanunvericilik sistemi müfəssəl təhlil edilir, göstərilən sahədə Azərbaycan Respublikası qanunvericiliyinin müvafiq normaları ilə beynəlxalq standartlar arasında müqayisəli araşdırma aparılır. Qeyd edilir ki, beynəlxalq hüququn ümumtanınmış normalarının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq standartların milli qanunvericiliyə implementasiyası və bu standartların həyata keçirilməsini təmin edəcək qanunvericilik bazasının yaradılması prosesində ilk mühüm addım 1995-ci ilin noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu oldu.

Konstitusiyanın qəbulundan keçmiş 19 il ərzində Azərbaycan Respublikasında mülki hüquq və azadlıqların təmin və müdafiə edilməsinə yönəldilmiş müxtəlif səpkili və statuslu normativ hüquqi aktlar – məcəllələr, konstitusiya qanunları, qanunlar, qaydalar və s. qəbul edildi. Lakin dissertasiyada beynəlxalq standartlarla milli qanunvericilik normaları arasında aparılmış müqayisəli təhlil göstərmişdir ki, mülki hüquq və azadlıqların təmininə yönəldilmiş Azərbaycan Respublikası qanunvericiliyində çatışmazlıqlar mövcuddur.

Belə çatışmazlıqlardan biri cinayət prosesini həyata keçirən orqanların şəxsin mülki hüquq və azadlıqlarının pozulmasına səbəb ola bilən prosessual hərəkətlərinin və ya qərarlarının, o cümlədən, məhkəmə qərarı olmadan məcburi aparılan istintaq hərəkətlərinin, prosessual məcburiyyət tədbirlərinin, tətbiq edilən əməliyyat-axtarış tədbirlərinin qanunauyğun həyata keçirilməsinə səmərəli nəzarət mexanizminin olmamasıdır. Belə ki, Azərbaycan Respublikası prokurorluq orqanlarının funksiyalarının çoxşaxəliliyi prokurorluq nəzarətinin qərəzsiz və səmərəli olmasını söyləməyə imkan vermir. Hazırda mövcud məhkəmə nəzarəti sistemi isə yalnız müvafiq prosessual hərəkətlər və ya qərarlardan şikayət olduğu təqdirdə onların qanuniliyinə münasibət bildirir.

Fikrimizcə, bu sahədə effektiv nəzarətin təşkilinə iki yolla nail olmaq olar. Birinci yol prokurorluq nəzarətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsidir. Bu tədbirlər, ilk növbədə, prokurorluq orqanlarında bir sıra islahatların aparılması, o cümlədən, istintaqın prokurorluqdan ayrılması, prokurorluğun əsas vəzifəsinin daha çox istintaqın qanuniliyinə nəzarətdə cəmləşdirilməsi, bir sıra qabaqcıl Avropa dövlətlərində olduğu kimi (Almaniya, Fransa və s.), prokurorun məhkəmə prosesində ittiham tərəfi kimi deyil, dövlətin nümayəndəsi kimi çıxış etməsinin təmin edilməsini ehtiva edir.

İkinci yol məhkəmə nəzarətinin səmərəliliyinin artırılmasıdır. Müəllifin fikrinə görə, bunun üçün, ilk növbədə, məhkəmə nəzarətini həyata keçirən məhkəmələrin (hakimlərin) funksiyaları genişləndirilməli, o cümlədən, cinayət prosesini həyata keçirən orqanlar tərəfindən şəxsin insan hüquqlarının kobud şəkildə pozulması (məsələn, şəxsin qanunsuz olaraq azadlıqdan məhrum edilməsi) barədə məlumat aldıqda

və ya təxirəsalınmaz hallarda insan hüquqlarını məhdudlaşdıran prosessual hərəkətlər məhkəmə qərarı olmadan həyata keçirildikdə, məhkəmə nəzarətini həyata keçirən hakimə, bu barədə şikayətin olub-olmamasından asılı olmayaraq məhkəmə nəzarəti qaydasında məsələyə baxılması vəzifəsi həvalə edilməlidir. Lakin məhkəmə nəzarətini həyata keçirən məhkəmənin funksiyaları genişləndirildiyi halda, məhkəmə nəzarətinin birinci instansiya məhkəmələrinin hakimləri tərəfindən həyata keçirilməsinin davam etdirilməsi qeyri-mümkün görünür. Belə ki, məhkəmə nəzarəti üzrə genişləndirilmiş funksiyaların iş həcmi böyük olan birinci instansiya məhkəmələrinin hakimlərinə həvalə edilməsi həmin məhkəmələrin iş keyfiyyətinə mənfi təsir göstərə bilər. Buna görə də, müəllif bir çox Avropa dövlətlərində mövcud olan (son illərdə bu institut keçmiş SSRİ ölkələrində də yaradılır -məs., Ukrayna, Latviya) "istintaq hakimi", yəni istintaqın həyata keçirilməsinə operativ nəzarəti həyata keçirən hakimlər kateqoriyasının yaradılması və istintaqa nəzarət üzrə genişləndirilmiş səlahiyyətlərin həmin hakimlərə verilməsini məqsədəuyğun hesab edir.

**Tədqiqat işinin üçüncü fəsli** "İnsanın fiziki azadlıq və fiziki toxunulmazlığını müdafiə edən mülki hüquqlar: beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyi" adlanır. Bu fəslin birinci yarımfəslində göstərilən qrupa daxil olan mülki hüquqlar – yaşamaq hüququ, işgəncələrə və digər qəddar, qeyri-insani, insan ləyaqətini alçaldan rəftar və cəzaya məruz qalmamaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququ, hərəkət etmək azadlığı sahəsində mövcud beynəlxalq standartlar tədqiq edilir, həmin hüquq və azadlıqların insan hüquqları arasında yeri, mahiyyəti araşdırılır, onların səciyyəvi cəhətləri müəyyən edilir, həmin hüquqlar sahəsində mövcud aktual problemlərə münasibət bildirilir.

Burada yaşamaq hüququ ilə bağlı aktual məsələlər arasında evtanaziya məsələsinə toxunulur. Qeyd edilir ki, evtanaziya məsələsi yaşamaq hüququ ilə bağlı ən mübahisəli məqamlardan biri olsa da bu məsələyə beynəlxalq hüququn mövqeyi konkret məcburi xarakterli normalarla təsdiqlənməmişdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin praktikasında aktiv evtanaziya məsələsinə 2002-ci ildə *Pretti Birləşmiş Krallığa qarşı iş* üzrə qərarında münasibət bildirilmişdir. Həmin iş üzrə qərarda məhkəmə evtanaziya hüququnun Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarından irəli gəlib-gəlməməsi ilə bağlı belə nəticəyə gəlmişdir: "digər şəxslərin və ya dövlət orqanlarının köməyi ilə insanın ölüm hüququ Konvensiyanın 2-ci maddəsindən doğmur", eyni zamanda məhkəmə



dövlətlər tərəfindən evtanaziyaya icazə verilməsi məsələsinə də münasibət bildirərək qeyd etmişdir: "xəstənin öz istəyi ilə həyatdan məhrum edilməsinin leqallaşdırılması təhlükəli ola bilər"[6].

Göstərilən məhkəmə qərarından belə qənaətə gəlmək olar ki, Avropa Konvensiyasının heç bir müddəası aktiv evtanaziyaya hüquq vermir. Digər tərəfdən konvensiyada bu evtanaziyanı qadağan edən kimi qiymətləndirilə biləcək müddəa da olmasa da, aktiv evtanaziyanın leqallaşdırılması konvensiyanın məqsədləri və standartları baxımından dəstəklənmir.

Passiv evtanaziyaya gəldikdə, ictimaiyyətin, eləcə də, hüququn passiv evtanaziyaya münasibəti aktiv evtanaziyada olduğu qədər sərt olmasa da beynəlxalq standartlarda bu evtanaziyanı dəstəkləyən normalar da yer almamışdır.

Göstərilən məsələyə müəllif öz fikrini bildirərək göstərir ki, sağalmaz xəstə olan şəxsin əzablardan qurtulmasına yardım edilməsi nə qədər humanist məqsəd kimi görünsə də, bir tərəfdən, evtanaziyanın leqallaşdırılması gələcəkdə "evtanaziya" adından istifadə edilərək xəstə, kimsəsiz adamların öldürülməsi hallarının çoxalması baxımından təhlükəli ola bilər, digər tərəfdən, evtanaziyanın leqallaşdırılması əksər dünya dinlərinin təməl prinsiplərinə ziddir.

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı 10 dekabr 1984-cü il tarixli Konvensiyada təsbit edilən işgəncə anlayışının şərhi zamanı müəllif işgəncənin törədilməsi məqsəd və səbəblərinin göstərilən anlayışda ifadə olunan məqsəd və səbəblərlə məhdudlaşıb-məhdudlaşmaması barədə hüquq ədəbiyyatında fikir müxtəlifliyi doğuran məsələyə münasibətini bildirir. Müəllifin fikrinə görə, yuxarıda göstərilən konvensiyanın 1-ci maddəsi məzmununa görə, "işgəncə" cinayətinin tərkibini müəyyən edən norma olduğundan, beynəlxalq standartlara uyğun olaraq, onun genişləndirici təfsirinə yol verilməməlidir.

**Bu fəslin ikinci yarımfəsli** göstərilən qrup mülki hüquqlar sahəsində beynəlxalq standartların Azərbaycan Respublikası qanunvericiliyinə implementasiyasına həsr edilir. Burada yuxarıda göstərilən mülki hüquqlar sahəsində beynəlxalq standartlarla Azərbaycan Respublikası qanunvericiliyi arasında müqayisəli təhlil aparılır, nəticədə, göstərilən qrup hüquqların hər birinin Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilməsi və həmin hüquqların təmin edilməsinə yönəldilmiş nor-

---

[6] Pretty v. United Kingdom, Judgment of 29 april 2002 / http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-60448

maların səhvi qanunvericilikdə yer alması müəyyən edilməklə yanaşı, Azərbaycan Respublikası qanunvericiliyində müəyyən çatışmazlıqlar da aşkarlanmışdır.

Azadlıq və şəxsi toxunulmazlıq hüququ sahəsində Azərbaycan Respublikası qanunvericiliyi ilə bağlı müəllif bir sıra çatışmazlıqların mövcudluğunu qeyd edir. **Əvvəla,** Azərbaycan Respublikası qanunvericiliyində beynəlxalq standartlarda (Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsində) nəzərdə tutulan əsaslara nisbətən hüquq pozuntusunun törədilməsi ilə əlaqədar tutulmanın əsaslarının daha geniş siyahısı nəzərdə tutulmuşdur. Müəllifin fikrinə görə, həmin uyğunsuzluğun aradan qaldırılması üçün, ilk növbədə, CPM-nin cinayət törətməsində şübhə ilə bağlı şəxsin tutulmasına həsr olunmuş 148-ci maddəsində göstərilən əsasla şəxsin tutulmasına onun cinayət törətməsində yalnız əsaslı şübhə olduqda və səlahiyyətli məhkəmə orqanının qarşısında durması məqsədilə yol verilməsi barədə müddəa yer almalıdır. **İkincisi,** CPM-də nəzərdə tutulmuş beynəlxalq standartlarda, ümumiyyətlə, nəzərdə tutulmayan şübhəli şəxsin tutulmasına əsas verən hallar - şübhəli şəxsin daimi yaşayış yeri olmaması və ya başqa ərazidə yaşaması; şəxsiyyətinin müəyyən edilməməsi - CPM-dən çıxarılmalı və ya ən azından şəxsin cinayət törətməsinə bilavasitə şübhənin və qaçmaq ehtimalının olması ilə şərtləndirilməlilər. **Bundan əlavə,** azadlıq və şəxsi toxunulmazlıq hüququnun vacib təminatlarından olan tutulma və ya həbs edilmənin qanuniliyinə, o cümlədən, tutulmanın və ya həbsin davam etməsinin qanuniliyinə məhkəmə tərəfindən baxılması proseduru Azərbaycan Respublikası qanunvericiliyində ümumi şəkildə təsbit edilsə də, psixiatriya stasionarına qeyri-könüllü yerləşdirilməsi halında şəxsin azadlığının məhdudlaşdırılmasının əsassız davam etməsindən şikayət etmək hüququ Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmamış, psixiatriya stasionarına qeyri-könüllü yerləşdirilmiş şəxsin psixiatriya müəssisəsindən vaxtından əvvəl çıxarılması və ya hospitallaşma müddətinin uzadılmaması barədə ərizə ilə məhkəməyə müraciət etmək hüququnu təsbit edən müddəa yer almamışdır. Dissertasiyada müəllif belə hesab edir ki, bu boşluğun da aradan qaldırılaraq göstərilən hüququ təsbit edən müddəaların MPM-də, eləcə də "Psixiatriya yardımı haqqında" Qanunda yer alması qanunvericiliyimizin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədinə nail olmaq üçün irəliyə atılmış addım ola bilərdi.

Tutulmuş şəxsə ona aydın olan dildə tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilməsinə dair beynəlxalq standart CPM-in 153.2-ci maddəsində təsbit edilmişdir.



Lakin CPM-də əks olunan bu maddə yalnız cinayət prosesi gedişində tutulan şəxslərə aid olduğu halda, şəxsin azadlığının məhdudlaşdırılmasını nəzərdə tutan digər qanunvericilik aktları (məs., İnzibati Xətalar Məcəlləsi və "Psixiatriya Yardımı haqqında" qanun) azadlığı məhdudlaşdırılmış şəxsin bu hüququnu təsbit etməmişdir. Göstərilən boşluğu aradan qaldırmaq üçün müəllif "Psixiatriya Yardımı haqqında" qanuna psixiatriya müəssisəsinə qeyri-könüllü yerləşdirilməsi məqsədilə şəxsin azadlığı məhdudlaşdırıldıqda həmin şəxsə dərhal onun azadlığının məhdudlaşdırılmasının səbəblərinin onun bildiyi dildə izah edilməli olması barədə müddəanın, İXM-ə şəxsə inzibati tutma tətbiq edildiyi andan şəxsin tərcüməçinin yardımından istifadə edə bilməsi barədə müddəanın əlavə edilməsini təklif edir.

Dissertasiya işinin "İnsanın mənəvi aləmi, şəxsi həyatı, ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı mülki hüquqlar: beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyi" adlanan **dördüncü fəslində** insanın mənəvi aləmi, şəxsi həyatı, ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı mülki hüquqlar sahəsində beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyi tədqiq edilmişdir.

**Həmin fəslin birinci yarımfəslində** qeyd olunan qrup mülki hüquq və azadlıqlar - fikir, vicdan və din azadlığı, şəxsi və ailə həyatının toxunulmazlığı hüququ, milli mənsubiyyətini müəyyən etmək və doğma dilindən istifadə etmək hüququ, nikaha daxil olmaq və ailə qurmaq hüququ, ədalətli məhkəmə araşdırması hüququ və qanuni əsas olmadan cəzalanmamaq hüququ sahəsində beynəlxalq standartlar tədqiqat obyekti olmuşdur.

Ədalətli məhkəmə araşdırması hüququnun vacib tərkib hissələrindən olan təqsirsizlik prezumpsiyasını şərh edərkən müəllif təqsirsizlik prezumpsiyası – informasiya azadlığı ziddiyyətinə toxunur. Məsələ ilə bağlı hüquq ədəbiyyatında üstünlük təşkil edən mövqe (məs., R.Smith və b.) ondan ibarətdir ki, KİV tərəfindən geniş işıqlandırma qanuni qüvvəyə minmiş hökm olmadan cəmiyyətdə şəxsin təqsirliyi barədə ictimai rəyin formalaşmasına və nəticədə, təqsirsizlik prezumpsiyasının pozulmasına səbəb ola bilər.[7] Digər qrup müəlliflər isə hesab edirlər ki, təqsirsizlik prezumpsiyasının təmin edilməsi, yəni şəxsin "məhkəmə hökmü qüvvəyə minənədək təqsirsiz sayılması" KİV-in deyil, yalnız dövlətin, dövlət orqanları və onların vəzifəli şəxslərinin vəzifəsidir və

[7] Smith R. Textbook İnternational Human Rights. Oxford: Oxford University Press, 2012, p.274

buna görə də, cinayət prosesinin KİV tərəfindən istənilən şəkildə işıqlandırılması təqsirsizlik prezumpsiyasını pozmur.[8] Birinci qrup müəlliflərlə razılaşan müəllif qeyd edir ki, əvvəla, təqsirsizlik prezumpsiyası təqsirləndirilən şəxsin ayrılmaz hüququ olduğundan bütün digər insan hüquqları kimi şəxsin bu hüququna da təkcə dövlət tərəfindən deyil, bütün şəxslər tərəfindən hörmət edilməlidir. Təqsirsizlik prezumpsiyasının dar mənada, yəni yalnız dövlətin təmin etməli olduğu vəzifə kimi anlaşılması, həmin hüququn məqsədinə, yəni ittiham hökmü qüvvəyə minənədək həyatının istənilən sferasında təqsirləndirilən şəxsə cinayətkar kimi münasibət göstərilməməsinin təmin edilməsi məqsədinə ziddir. İkincisi, KİV tərəfindən geniş və bəzən birtərəfli (qərəzli) işıqlandırma nəinki cəmiyyətdə təqsirləndirilən şəxsə qarşı vaxtından əvvəl neqativ münasibətin formalaşmasına səbəb ola bilər, hətta hakimlərin, ələxsus andlı iclasçıların iştirakı ilə işə baxılması zamanı andlı iclasçıların mövqeyinə təsir göstərə, onların qərəzsizliyini şübhəyə ala bilər. Üçüncüsü, beynəlxalq standartlara əsasən təqsirsizlik prezumpsiyası məhdudlaşdırılmasına yol verilməyən mütləq hüquq olduğu halda ifadə etmək azadlığının məhdudlaşdırılmasına yol verilmişdir. Bundan əlavə, ifadə etmək azadlığını təsbit edən beynəlxalq standartlarda (İHAK-ın 10-cu maddəsinin 2-ci bəndində) bu azadlığın həyata keçirilməsinin ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən formallıqlara, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilməsi xüsusi vurğulanmışdır.

**Dördüncü fəslin ikinci yarımfəslində** göstərilən qrup mülki hüquq və azadlıqlar sahəsində beynəlxalq standartların Azərbaycan Respublikası qanunvericiliyinə implementasiya məsələləri araşdırılır, həmin sahədə mövcud Azərbaycan Respublikası qanunvericiliyi beynəlxalq standartlara uyğunluğu baxımından təhlil edilir. Burada göstərilir ki, son illərdə şərh edilən sahədə Azərbaycan Respublikası qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində vacib addımlar atılsa, o cümlədən mütərrəqqi normalara malik yeni qanunvericilik aktları qəbul edilsə və mövcud qanunvericilik aktlarına dəyişikliklər edilsə də, həmin sahədə Azərbaycan Respublikası qanunvericiliyinin təkmilləşdirilməsinə ehtiyac vardır. Məsələn, ədalətli məhkəmə araşdırması hüququ sahəsində müəllif Azərbaycan Respublikası qanunvericiliyində bir sıra mühüm ziddiyyət və boşluq hallarının mövcudluğunu qeyd edir.

[8] Бахриев К. Презумпция невиновности и свобода слова / http://www.tashabbus.uz/prezumpsiya-nevinovnosti/



Bu hallar aşağıdakılardan ibarətdir.

1. İnsan hüquqları üzrə Avropa Məhkəməsinin praktikasında işə mahiyyəti üzrə baxılmasında iştirak edən hakimin əvvəllər eyni cinayət işi üzrə həmin təqsirləndirilən şəxsə həbs qətimkan tədbirinin tətbiq edilməsi və ya həbs müddətinin uzadılması barədə qərar qəbul edilməsində iştirakına "hakim qərəzsizliyini" şübhəyə alan fakt kimi baxıldığı halda, Cinayət Prosessual Məcəlləsində göstərilən hal hakimə etirazın əsasları arasında yer almamışdır.
2. CPM-in 84.6.4-cü maddəsində dövlət ittihamçısı kimi prokurora ittiham tərəfinin sübutlarının məhkəməyə təqdim olunması məqsədi ilə məhkəmənin qərarı ilə prosessual məcburiyyət tədbirlərini tətbiq etmək hüququnun verilməsi və həmin hüququn müdafiə tərəfinin hüquqları arasında yer almaması tərəflərin bərabərliyi prinsiplərini pozur.
3. CPM-in 95.1-ci maddəsində iş üzrə hər hansı əhəmiyyət kəsb edən hallardan xəbərdar olan şəxsin ittiham tərəfindən həm ibtidai araşdırma zamanı, həm də məhkəmə baxışı zamanı, müdafiə tərəfindən isə yalnız məhkəmə baxışı zamanı çağırılıb şahid qismində dindirilə bilməsinin nəzərdə tutulması təqsirləndirilən şəxsin əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidləri çağırmaq və dindirməyə nail olmaq hüququna ziddir.
4. şübhəli şəxsin dindirilməsinə həsr edilmiş 232.2-ci maddəsində şübhəli şəxsin yalnız tutulduğu halda ifadələrini müdafiəçinin iştirakı ilə vermək hüququ nəzərdə tutulmuşdur. Göstərilən müddəa tutulmamış şübhəli şəxslərin müdafiəçinin iştirakı olmadan verdiyi ifadələrinin sonradan həmin şəxs təqsirləndirilən şəxs qismində işə cəlb edildikdən sonra onun əleyhinə istifadə edilməsinə şərait yaradır və şəxsin müdafiə hüququnu pozur.

Bu yarımfəsildə, həmçinin, mülki hüquq və azadlıqlar sahəsində Azərbaycan Respublikası qanunvericiliyi ilə beynəlxalq standartlar arasında ciddi uyğunsuzluq hallarından biri kimi, milli mənsubiyyəti müəyyən etmək hüququnun milli qanunvericiliyimizdə beynəlxalq standartlara nisbətən daha dar mənada işlədilməsi göstərilmişdir. Vurğulanmışdır ki, milli mənsubiyyət hüququna həsr edilmiş Konstitusiyanın 44-cü maddəsi yalnız milli mənsubiyyəti qoruyub saxlamaq və dəyişdirməyə məcbur edilməmək hüquqlarını təsbit etdiyi halda beynəlxalq standartlara əsasən milli mənsubiyyəti müəyyən etmək hüququ milliyyətini göstərmək və ya göstərməmək azadlığını, eyni zamanda istədiyi halda ona milliyyətinin nümayəndəsi kimi baxılmamasını tələb etmək, yəni faktiki olaraq milliyyətindən imtina etmək hüququnu ehtiva edir.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqata yekun vurulur,

mövzu üzrə əldə edilmiş elmi qənaətlər ümumiləşdirilir.

Dissertasiya mövzusunun tədqiqi ilə əlaqədar müəllif tərəfindən çap edilmiş elmi əsərlər aşağıdakılardır:


1. Beynəlxalq hüquqda ikili vətəndaşlıq problemi // Dirçəliş–XXI əsr (Bakı), 2006 (oktyabr-noyabr), № 104-105, s.370-377
2. Qarışıq vətəndaşlıqlı ailədə vətəndaşlıq məsələləri üzrə beynəlxalq və milli standartlar // Dirçəliş–XXI əsr, Bakı, 2008 (fevral-mart), №120-121, s.314-319
3. Двойное гражданство и проблемы бипатридов // Право и политология Тбилиси, 2008 (март), № 1(2), с. 21-25
4. Dövlət daxilində və bir dövlətdən başqa dövlətə hərəkət etmə ilə bağlı mülki hüquqlar: beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyi // Beynəlxalq hüquq və inteqrasiya məsələləri, 2012, № 1(29), s.68-76
5. Гражданские права, их содержание, система, правовая природа // Закон и жизнь, Кишинэу, 2012 (сентябрь), № 9 (249), с. 45-49
6. Fikir, vicdan və dini etiqad azadlığı: Beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyi // Din və etiqad azadlığı. Hüquqi, siyasi və ictimai aspektlər. Beynəlxalq tərkibli respublika konfransı. Tezislər toplusu. Bakı, 2012, s.44-45
7. Mülki hüquq və azadlıqların müdafiəsinin hüquq institutu kimi yaranması və inkişafı tarixi // Beynəlxalq hüquq və inteqrasiya məsələləri, Bakı, 2012, № 2 (30), s. 44-51.
8. Международные стандарты в области права на свободу и личную неприкосновенность // Право и политология, Кишинэу, 2013, № 23, с. 30-34
9. Köləlikdə saxlanılmamaq və məcburi əməyə cəlb olunmamaq hüququ: beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyi // Dirçəliş–XXI əsr, Bakı, 2013 (avqust –sentyabr), № 176-177, s.38-48
10. Yaşamaq hüququ: beynəlxalq standartlar və Azərbaycan Respublikası qanunvericiliyi // Dirçəliş–XXI əsr, Bakı, 2013 (oktyabr-noyabr), № 178-179, s.336-349




## Резюме


Тема диссертации – "Гражданские права: международные стандарты и законодательство Азербайджанской Республики", посвящается актуальным вопросам современного международного права – вопросам взаимодействия международного и национального права в сфере прав человека и имплементации международных стандартов в данной сфере в национальное законодательство.

Актуальность темы обуславливается важностью обеспечения и реализации прав человека, как для каждого человека, так и для общества в целом, а также особому значению развития института защиты прав человека для молодых государств, стоящих на пути развития демократии, в том числе и таких, как Азербайджанская Республика.

Диссертационная работа состоит из введения, 4 глав, заключения и списка литературы.

В первой главе автор исследует историю закрепления гражданских прав в национальных правовых актах и анализирует дальнейшее развитие данного института в рамках международного права, а также затрагивает проблемы взаимодействия международного и национального права в этой области.

Вторая глава посвящается общей характеристике международных стандартов и законодательства Азербайджанской Республики в области защиты гражданских прав и свобод. В этой главе определяются основные принципы защиты гражданских прав, проводится классификация, как международных стандартов, так и национальных правовых норм в указанной области.

В третьей и четвертой главах исследуются международные стандарты по каждому гражданскому праву, а также производится сравнительный анализ международных стандартов и национального законодательства Азербайджанской Республики.

Практическое значение научной работы заключается в том, что научные положения, выдвигаемые на защиту, а также рекомендации и предложения, разработанные в результате научного исследования, могут быть использованы в процессе совершенствования национального законодательства, в том числе норм, направленных на защиту гражданских прав, в судебной практике, а также в процессе преподавания, разработки соответствующих учебных курсов в университетах. Результаты исследования имеют практическое значение в деле осознания и защиты гражданами своих прав, что, безусловно, направлено на достижение целей Конституции Азербайджанской Республики 1995 года – Конституции Гейдара Алиева.

**Summary**

The theme of the dissertation “Civil Rights: International standards and the legislation of the Azerbaijan Republic” is dedicated to the actual problems of comtemporary international law - to the issues of interaction between international and national law in the field of human rights protection and implementation of international standards in this field to national legislations.

The actuality of the theme is characterized by importance of provision and realization of human rights both for each person and for society on the whole and also by special signification of development of human rights protection institute in young states staying on the democracy way, such as the Azerbaijan Republic.

The dissertation consists of introduction, 4 charters, conclusion and literature list.

In the first charter author investigates the history of fixation of civil rights in national legal acts and analyses further development of this institute within framework of international law, as well as touches on the problem of interaction between international and national law in this field.

Second charter is devoted to general characteristics of international standards and national legislation of the Azerbaijan Republic, protecting civil rights and freedoms. In this charter author determines the main prinsiples of civil rights protection and classifies both international standards and national legal norms in this sphere.

The international standards on each of civil rights are investigated in the third and fourth charters. The comparative analysis of international standards and national legislation of the Azerbaijan Republic in aforementioned field is also carried out here.

The practical value of scientific work is that scientific provisions expressed thereof , as well as proposal and advices worked out as the result of scientific work can be used in improvement process of national legislation related to civil rights protection, and also in judicial practice.



**ЗАКРЫТОЕ АКЦИОНЕРНОЕ ОБЩЕСТВО**
**«АЗЕРБАЙДЖАН ХАВА ЙОЛЛАРЫ»**
**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ АВИАЦИИ**

*На правах рукописи*

**Лейла Рауф гызы Алиева**

# ГРАЖДАНСКИЕ ПРАВА: МЕЖДУНАРОДНЫЕ СТАНДАРТЫ И ЗАКОНОДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Специальность: 5603.01 – Международное право; права человека
5607.01 – Конституционное право;
муниципальное право

**АВТОРЕФЕРАТ**

диссертации на соискание
ученой степени доктора философии по праву

**Баку - 2014**